*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 120-126*
https://doi.org/10.62837/2024.3.120

**XANIM Ə.MİRZƏYEVA**

***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***Üzeyir Hacıbəyli küçəsi,68, Bakı, Səbail***
***xanimmirzyeva14@gmail.com***

# XI SİNİF ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ MİR CƏLAL PAŞAYEVİN HƏYAT VƏ YARADICILIĞININ ÖYRƏDİLMƏSİ İMKANLARI

***Açar sözlər:*** *Yazıçı, ədəbiyyatşünas, kurikulum, ədəbiyyat dərsi, interaktiv metod, təhlil, müzakirə.*

**Xülasə**

Ədəbiyyat dərslərində qüdrətli söz sənətkarlarının həyat və yaradıcılığının öyrənilməsi böyük təlim-tərbiyəvi əhəmiyyətə malikdir. XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mir Cəlal Paşayev çoxşaxəli fəaliyyəti ilə Azərbaycan ədəbiyyatına, elminə, incəsənətinə böyük töhfələr vermişdir. Ədibin bir şəxsiyyət kimi formalaşması gərgin və məsuliyyətli əməyin, yüksək təhsilin nəticəsidir. Böyük ədib dövrünün görkəmli alimi və pedaqoqu olmaqla ədəbi-nəzəri, elmi dünyagörüşün formalaşması işində təkcə XX əsrə sığışmayan böyük işlər görmüşdür. XI sinfin ədəbiyyat dərslərində ədibin həyat və yaradıcılıq yolunun öyrənilməsi gənc nəslin dünyagörüşünün formalaşmasında, ideya-mənəvi və estetik tərbiyəsində mühüm rol oynayır.

Görkəmli sənətkarın şəxsiyyəti və yaradıcılıq yolu haqqında şagirdlərdə dolğun təsəvvür yaradılması, onların mövzu ilə bağlı ədəbi biliklərə dərindən yiyələnməsi təlim prosesində ədəbiyyat müəlliminin qarşısında duran başlıca vəzifələrdəndir. Tədris zamanı ədəbiyyat dərsliyi ilə yanaşı, ədib haqqında video-materiallardan, əsərlərdən, əlavə mənbələrdən istifadə olunması məqsədəuyğundur. Sənətkarın həyat və yaradıcılıq yoluna həsr olunan dərsdə müzakirə, təqdimat, diskussiya kimi interaktiv təlim metodlarından, kiçik və böyük qruplarla iş formasından istifadə edilməsi də faydalı olardı. Bu məqsədlə müəllim təlim prosesində kurikulumun tələblərinə uyğun olaraq, interaktiv təlim metodlarından məqsədyönlü istifadə etməlidir. Bununla da müəllim şagirdlərin yaradıcı təfəkkür və tədqiqatçılıq bacarığını inkişaf etdirə bilər.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 120-126*

**Х. А. Мирзаева**

# ВОЗМОЖНОСТИ ПРЕПОДАВАНИЯ ЖИЗНИ И ТВОРЧЕСТВА МИРА ДЖАЛАЛА ПАШАЕВА НА УРОКАХ ЛИТЕРАТУРЫ XI КЛАССА

***Ключевые слова:*** *Писатель, литературный критик, учебная программа, урок литературы, интерактивный метод, анализ, дискуссия.*

Изучение жизни и творчества великих мастеров слова на уроках литературы имеет большое воспитательное значение. Мир Джалал Пашаев, один из видных представителей азербайджанской литературы XX века, своей многогранной деятельностью внес большой вклад в азербайджанскую литературу, науку и искусство. Становление писателя как личности – результат упорного и ответственного труда и высокого образования. Будучи крупным учёным и педагогом великой литературной эпохи, он провёл великие работы по формированию литературно-теоретического и научного мировоззрения, не умещавшегося только в XX веке. Изучение жизненного и творческого пути писателя на уроках литературы 11 класса играет важную роль в формировании мировоззрения подрастающего поколения, в идейно-духовном и эстетическом воспитании.

Одной из основных задач, стоящих перед учителем литературы в процессе обучения, является создание у учащихся полного представления о личности и творческом пути известного художника, приобретение глубоких литературных знаний, связанных с предметом. Во время обучения уместно использовать учебники литературы, видеоматериалы, произведения, дополнительные источники. Также на уроке, посвященном жизненному и творческому пути художника, было бы полезно использовать такие интерактивные методы обучения, как дискуссия, презентация,обсуждения, а также формы работы с малыми и большими группами. Для этого преподавателю следует целенаправленно использовать в процессе обучения интерактивные методы обучения в соответствии с требованиями учебной программы. Благодаря этому учитель может развивать творческое мышление и исследовательские навыки учащихся.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 120-126*

**H. A. Mirzayeva**

# POSSIBILITIES OF TEACHING LIFE AND CREATIVITY OF THE WORLD BY JALAL PASHAYEV IN LITERATURE LESSONS OF THE XI GRADE

***Key words:*** *Writer, literary critic, curriculum, lesson of literature, interactive method, analysis, discussion.*

The study of the life and creativity of great word masters in the lessons of literature is of great educational importance. Mir Jalal Pashayev, one of the prominent representatives of 20th century Azerbaijani literature, has made a big contribution to Azerbaijani literature, science and art. Becoming a writer as a person is the result of hard and responsible work and high education. As a major scholar and educator of the great literary age, he did great work on the formation of a literary, theoretical and scientific worldview that did not fit only in the 20th century. The study of the life and creative ways of the writer in the lessons of literature of the 11th grade plays an important role in the formation of the worldview of the younger generation, in the thought-spiritual and aesthetic education.

One of the main tasks facing the teacher of literature in the process of teaching is to create in the students a full understanding of the personality and creative way of the famous artist, to acquire a deep literary knowledge related to the subject. During the training, it is appropriate to use literature textbooks, video materials, works, additional sources. It would also be useful to use interactive teaching methods such as discussion, presentation and debates, as well as forms of working with small and large groups, in a lesson dedicated to the artist's life and creativity. In order to do this, the teacher should purposefully use interactive teaching methods in the learning process, in accordance with the requirements of the curriculum. This enables the teacher to develop the students' creative thinking and research skills.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mir Cəlal Paşayev ədəbiyyatımızda müəllim, yazıçı və ədəbiyyatşünas kimi tanınır. Görkəmli sənətkar çoxşaxəli fəaliyyəti ilə Azərbaycan ədəbiyyatına, elminə, incəsənətinə böyük töhfələr vermişdir. "UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. XX əsr Azərbaycan ədəbiyyatında, elmində müstəsna xidmətlər göstərən Mir Cəlal Paşayevin 100 illiyinin YUNESKO səviyyəsində qeyd olunması, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən önəmli dəyərin təzahürüdür.[5]

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli

Sərəncamına əsasən, ədibin “Seçilmiş əsərləri” kütləvi tirajla nəşr olunub məktəb kitabxanalarına verilmişdir. Müəllim bu əhəmiyyətli nəşrdən kurikulum üzrə ədəbiyyat dərslərində ədibin həyat və yaradıcılığı öyrədilərkən əlavə mənbə kimi istifadə etməli, şagirdlərin müstəqil işinə, tədqiqatçılıq fəaliyyətinə zəmin yaratmalıdır.

Ədibin bir-birindən maraqlı hekayələri, roman və povestləri ədəbiyyatımızda özünəməxsus yer tutur. Onun romanlarında ana xətt başdan-başa vətənpərvərlik, humanizm kimi müsbət ideyalar üzərində qurulub. Hal-hazırda ədəbiyyat dəsrlərində ədibin 6-cı sinifdə "Dərsimi yaz" hekayəsi, 7-ci sinifdə "Bahar"(“Bir gəncin manifesti”) əsəri, 9-cu sinifdə "Vətən yaraları" hekayəsi və 11-ci sinifdə isə sənətkarın həyat və yaradıcılıq yolu, həmçinin "Açıq kitab" əsəri tədris olunur.

Sənətkarın həyat və yaradıcılığının öyrənilməsi üzrə ədəbiyyat dərsinin motivasiya mərhələsində yeni mövzunun öyrənilməsi üçün zəmin yaratmaq məqsədilə Mir Cəlal Paşayev haqqında “Üç zirvənin fatehi” filminin nümayişi məqsədə uyğundur. Daha sonra şagirdlərin bu film haqqında təəssüratları öyrənilir.[2,s.134]

Dramaturqun həyat və yaradıcılıq yolunun öyrənilməsi üçün münbit zəmin yaratmaq məqsədilə müəllim şagirdlərə belə bir sualla müraciət edir: Mir Cəlal Paşayevin həyatı, şəxsiyyəti haqqında nə bilirsiniz? Suala cavab vermək üçün şagirdlər əvvəlcə bu mövzuda IX sinifdə qazandıqları biliklərə istinad edirlər. Bildirilir ki, “Vətən yaraları” hekayəsi Mir Cəlal Paşayevin oxucaların böyük rəğbətini qazanmış əsərlərdəndir. İkinci Dünya müharibəsinin ən qızğın çağında qələmə alınan bu əsərdə geniş müharibə səhnələri verilməsə də, oxucuda ədalətsiz müharibəyə, onu törədənlərə qarşı güclü qəzəb, nifrət duyğusu oyanır. Əsərdə bir-birinə zidd olan iki aləm üz-üzə qoyulur: dinc həyat və müharibə. Dinc həyat yalnız əsgər xatirələrində mövcuddur. Müharibə isə gerçək və amansızdır. Dinc həyatın, əziz xatirələrin,müqəddəs hislərin qorunması istəyi hekayənin mahiyyətini, mənasını təşkil edir.

Dərsin sonrakı mərhələsində sənətkarın həyat və yaradıcılıq yolunun dərindən öyrənilməsi məqsədilə tədqiqat sualına uyğun olaraq, M.C.Paşayevin ədəbi fəaliyyətinin daha səciyyəvi cəhətlərinin müəyyənləşdirilməsi üzrə araşdırma aparılır.

Kiçik qruplara tədqiqat üçün aşağıdakı qayda üzrə tapşırıqlar verilir:

1. Mir Cəlalın yaradıcılığında aldığı təhsilin və Gəncə ədəbi mühitinin hansı rolu olmuşdur?
2. Mir Cəlalın hekayələri üçün səciyyəvi cəhətlər hansılardır?
3. Mir Cəlalın roman yaradıcılığı hansı xüsusiyyətləri ilə seçilir?
4. Mir Cəlalın elmi yaradıcılığı hansı cəhətləri ilə səciyyəvidir? [1,s.118-119]

Kurikulumun tələbinə uyğun olaraq, dərsdə mövzu ilə əlaqədar əlavə mənbələr üzrə də iş təşkil edilir. Bu məqsədlə, kiçik qruplara görkəmli tədqiqatçı Yaqub İsmayılov və ədəbiyyatşünas alim Nərgiz Paşayevanın sənətkarın həyat və yaradıcılığı ilə bağlı fikirlərinə münasibət bildirmək təklif olunur:

1. “Mir Cəlalın yaradıcılığında başlıca tədqiq və inikas obyekti, hər şeydən əvvəl, insandır, onun mənəvi dünyası, fikri-hissi həyatı, mübarizə və fəaliyyətidir. İnandırıcı surətlər, xarakterlər yaratmaq tələbi sənətkar Mir Cəlalı da daim ciddi düşündürmüş və əksər hallarda o, məqsədinə nail olmuşdur. Müəllifin realist qələmlə canlandırdığı surətlər bir-birinə oxşamır, hərəsinin öz daxili aləmi həyata öz baxışı, öz təfəkkür tərzi, orijinal xarakteri, bu xarakteri fərdiləşdirən və ümumiləşdirən keyfiyyətləri var”.[4,s.11]
2. “Mir Cəlal heç vaxt olduğu yüksəklikdən enib, haqqı da olsa heç kəsdən, heç nəyi tələb etmədi. Çünki o yaxşı bilirdi ki, əsl yüksəklik kağızların, sənədlərin, möhürlərin, qərarların, iclasların hökmü ilə deyil, ləyaqətli insan ömrü və bu ömrün zamandan-zamana təsdiqi və təntənəsi ilə ölçülür. O da sirr deyil ki, daxilində bir ilahi qığılcım yaşayan hər bir yazıçı, alim, ümumiyyətlə hər bir istedad zaman çərçivəsini yararaq əbədiyyətə qovuşur. Beləliklə, yazıçı və zaman qarşıdurması həmişə olduğu kimi bu dəfə də yazıçı qalibiyyəti ilə nəticələnir”. [3, s.29]

Kiçik qruplar müəllimin tapşırığına əsasən, ilk növbədə, sənətkar haqqında mətnlə tanış olur, oxu zamanı diqqəti cəlb edən məsələlərlə bağlı qeydlər aparırlar. Müəllim sənətkarın həyat və yaradıcılıq yolundan bəhs edən mətnin oxusunun təşkilinə xüsusi diqqətlə yanaşır. Təcrübə göstərir ki, XI sinif ədəbiyyat dərsliyində verilmiş mətn əvvəlki sinif ədəbiyyat dərsliklərində verilən mətnlərə nisbətən daha mürəkkəb olduğu üçün şagirdlərin təlim fəaliyyətinin təşkilinə bilavasitə təsir göstərir. Bu baxımdan, kiçik qrupların mətnlə tanışlığı, araşdırma fəaliyyəti daim müəllimin diqqət mərkəzində olmalıdır. Odur ki, müəllim işin gedişi zamanı yeri gəldikcə məsələyə müdaxilə etməli, şagirdlərin suallarını cavablandıraraq onlara düzgün istiqamət verməlidir.

Yazıçının həyatı haqqında məlumatda bildirilir ki, Mir Cəlal Ərdəbil rayonunun Əndəlib kəndində anadan olmuşdur. Ailəsi ilə birlikdə Gəncəyə köçmüş və ibtidai təhsilini də burada almışdır. Gəncə Pedaqoji Texnikumunda təhsil almış sonra isə Gəncə və Gədəbəy məktəblərində müəllimlik etmişdir.[1,s.118]

Dərsdə sənətkarın yaradıcılıq yolunun müzakirəsi zamanı aldığı təhsilin və Gəncə ədəbi mühitin yaradıcılığına təsiri müzakirə olunur. Şagirdlər sənətkarın, Gəncə Darülmüəlliminə daxil olmasını, orada tələbə təşkilatının , sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri kimi fəaliyyətini, Gəncədə və Gədəbəydə müəllimlik etməsini onun dünyagörüşünün formalaşmasında mühüm amil kimi dəyərləndirir. Sənətkarın pedaqoji fəaliyyəti barədə də məlumat verilir. O 1930-1932-ci illərdə Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsində təhsil almışdır. Sonra Bakıya qayıdaraq təhsilini Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun aspiranturasında davam etdirmişdir. Pedaqoji fəaliyyətini 1933-cü ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Universitetində davam etdirmişdir.

Dərsdə yazıçının hekayə və roman yaradıcılığı ilə bağlı suallar müzakirə olunur. Mir Cəlalın hekayə və roman yaradıcılığı ilə bağlı sualların müzakirəsi zamanı onun ədəbiyyatımızda kiçik hekayənin əsas yaradıcılarından biri olduğu vurğulanır. “Molla Nəsrəddin” məktəbinin ədəbi ənənələrinə xüsusi ehtiramla yanaşan yazıçı

Azərbaycan hekayəsini yaşadığı dövrün mövzuları və problemləri ilə zənginləşdirmişdir. Onun hekayələr üçün gerçəkliyə obyektiv münasibət, həyat həqiqətlərinin bədii əksi, tənqidi ruh, cəmiyyətdə insan mənəviyyatı və davranışındakı nöqsanların tənqidi, yumorlu və satirik bədii gülüş, komizm, yığcamlıq, təbiilik səciyyəvidir. Bu kimi xüsusiyyətlər sənətkarın "Həkim Cinayətov", "Bostan oğrusu", "Təzə toyun nəzakət qaydaları", "Badam ağacları" və digər hekayələrinin əsasının təşkil edir. Yazıçının fərdi üslubunun özünəməxsusluğunu ifadə edən "Həyat hekayələri", "Sadə hekayələr" kitablarında toplanmış əsərlər yüksək ideya-bədii keyfiyyətləri, xəlqiliyi ilə oxucuya saf, səmimi hisslər aşılayır.

Mir Cəlal yüksək sənətkarlıq nümunəsi olan romanlarında da insanları düşündürən həyati problemləri, mənəvi-əxlaqi və ictimai-sosial məsələləri əks etdirmişdir. Sənətkar "Dirilən adam" əsərində mükəmməl xarakterli obrazlar yaratmışdır. Əsərdəki Qədr obrazı sərt ictimai mühitin girdabından çıxmaq istəyən, lakin cəmiyyətdə özünə dayaq tapa bilməyən insanların ümumiləşmiş obrazıdır. "Açıq kitab" romanında tutduğu doğru yoldan dönməyən yeni nəslin uğurlarının labüdlüyü, maarifçi mühiti bulaşdıran insanların faciəsinin ictimai mahiyyəti açılıb göstərilir. "Bir gəncin manifesti" romanında yazıçı əsərin qəhrəmanı olan Baharın haqlarını müdafiə etmək, ədalətsiz cəmiyyətin əzdiyi insanın çağırışlarını əks etdirməklə kifayətlənmir, bütövlükdə insanlığın manifestini canlandırır. "Yolumuz hayanadır" romanında isə tarixiliklə müasirlik öz əksini üzvi əlaqədə tapmışdır. Əsərdə Azərbaycan satirik şeirinin görkəmli nümayəndəsi Mirzə Ələkbər Sabirin keşməkeşli həyatı və ədəbi mübarizəsi fonunda sənətkar və zaman münasibətlərinin məsuliyyəti və gərginliyi ön mövqeyə çəkilmişdir.[1,s.118]

Dərsdə yazıçının elmi yaradıcılığı da müzakirə olunur. Onun M.Füzulinin yaradıcılığına həsr olunmuş "Füzuli sənətkarlığı" monoqrafiyasının orta əsrlər Azərbaycan poeziyası haqqında mühüm elmi mənbə olduğu vurğulanır. Mir Cəlalın həmmüəllif olduğu "Ədəbiyyatşünaslığın əsasları", "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliklərindən ali məktəblərimizdə indi də dəyərli mənbə kimi istifadə olunur. "Azərbaycanda ədəbi məktəblər" monoqrafiyasında isə maarifçi realizm, tənqidi realizm və romantizm cərəyanlarının elmi-nəzəri məsələlərini tədqiq etmişdir. Mir Cəlal bədii ədəbiyyatımızın inkişaf yoluna, bədii axtarışlarına, realizm, xəlqilik və s. ədəbi-nəzəri problemlərinə həsr olunmuş dəyərli elm əsərlərin müəllifidir. Şagirdlərdə belə qənaət yaradılır ki, böyük sənətkar, alim Mir Cəlalın bədii, elmi irsi zəngin və çoxcəhətlidir. Ədibin yüksək sənətkarlıq nümunəsi olan hekayə və romanları öz ideya-bədii dəyərini, mövzu-problem aktuallığını, sosial kəsərini bu gün də qoruyub saxlamaqdadır. [1,s.119]

Mir Cəlalın çoxtərəfli yaradıcılıq fəaliyyətinin hər bir sahəsi xalqımızın həyat həqiqətlərinin inikasıdır. Onun istər mənalı ömür yolu, istərsə də bədii əsərlərində qoyduğu ideyalar xalqının həyat amalı, devizidir. Ədibin həyat və yaradıcılıq yolunun tədrisində interaktiv təlim texnologiyasının tətbiqi, internet şəbəkəsindən, sənətkar haqqında tədqiqat əsərlərindən, xatirələrdən istifadə müsbət nəticə verir. Ədəbiyyat müəllimləri böyük sənətkarın həyat və yaradıcılıq yolu, ayrı-ayrı

əsərlərinin təlim materialı kimi öyrədilməsi ilə kifayətlənməməli, şagirdləri ədibin latın qrafikası ilə çap edilib məktəb kitabxanalarına hədiyyə edilmiş "Seçilmiş əsərləri"nin sinifdənxaric oxusuna cəlb etməlidirlər.

**Ədəbiyyat siyahısı.**

1. Həbibbəyli İ., Əliyev S., Həsənov B., Mustafayeva A. Ədəbiyyat. XI sinif üçün dərslik.- Bakı.-2018. -208 s.
2. Həsənov B., Mustafayeva A., Əliyev S. Ədəbiyyat. XI sinif. Müəllim üçün metodik vəsait. -Bakı.-2018.-208 s.
3. Mir Cəlal.Seçilmiş əsərləri. -Bakı.-2008.-444 s.
4. Mir Calal. Seçilmiş əsərləri. -Bakı.-2005.-384 s.
5. https://portal.azertag.az/az/node/14978

**Redaksiyaya daxil olma tarixi: 15.03.2024**
**Çapa qəbul olunma tarixi: 30.03.2024**
**Rəyçi: Ped.ü.f.d., dosent Bilal Həsənli tərəfindən çapa tövsiyə olunmuşdur.**
**tərəfindən çapa tövsiyə olunmuşdur**